# ƏBƏDİYAŞARLIQ ZİRVƏSİ

Prezident, dövlət idarəçiliyi və ölkəşünaslığa dair ədəbiyyatın biblioqrafiyası şöbəsində Ümummilli lider Heydər Əliyevin anım gününə həsr olunmuş kitab sərgisi təşkil olunmuşdur.

Kitab sərgisinin açılış mərasimində əvvəlcə Kitabxananın kollektivi adından Ümummilli liderin Konfrans zalındakı büstünün önünə təzə-tər gül-çiçək dəstələri qoyuldu. Sonra tədbir iştirakçıları Heydər Əliyevin həyatı və fəaliyyətinin müxtəlif anlarını əks etdirən foto-slaydın nümayişinə baxdılar.

Kitabxananın direktoru Mayıl Əhmədov Ümummilli liderin Azərbaycan tarixində, xalqımızın, cəmiyyətimizin bu günkü inkişafındakı xidmətlərindən, elmə, təhsilə, mədəniyyətə olan qayğısından, eləcədə Prezident Kitabxanasının yaradılmasına göstəriş verməsə barədə ətraflı danışdı. Sonra kitabxananın əməkdaşları Nailə Əhmədova, Abbas Abbasov, Əfruz Məlikova, Arzu Murtuzəliyeva, Elmira Haqverdiyeva çıxış edərək Ümummilli liderlə bağlı xatirələrini söylədilər.

Mərasim iştirakçıları Konfrans zalında Ümummilli liderin həyat və fəaliyyətinə həsr olunmuş zəngin kitab sərgisi ilə maraqla tanış oldular.